# Dövlət Neft Fondu - Azərbaycanın inkişaf fondudur

## Dövlət Neft Fondunun yaradılmasında zərurət və məqsəd

**Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın zəngin neft ehtiyatları dünyanın inkişaf etmiş ölkələrinin və iri beynəlxalq neft şirkətlərinin diqqət mərkəzinə düşdü. Son illər ölkəyə neft pullarının daxil olması cəmiyyətin diqqətini neft və neft gəlirləri məsələsinə yönəldib. Elə bu da mənfəət neftinin satışından daxil olan valyuta vəsaitlərinin və digər gəlirlərin toplandığı ünvanın - Dövlət Neft Fondunun (DNF) ictimai diqqət mərkəzinə çevrilməsini şərtləndirib. Son illər DNF-yə artan ictimai maraq onun haqqında olan informasiyalara tələbatı da yüksəldib.**

**İlham MƏMMƏDOV**
**Azadinform İnformasiya Agentliyi**



İlk dövrlərdə neft sazişləri çərçivəsində daxil olan vəsaitlər Mərkəzi Bankın hesablarında toplanırdı ki, bu, doğrudan da vəsaitlərin hərəkətlərinə səmərəli ictimai nəzarətə imkan vermirdi.

Hazırda dünyanın 15-dək ölkəsində dövlətin enerji resurslarından əldə edilən gəlirləri özündə toplayan və bu ölkənin gələcək inkişaf prioritetlərini maliyyələşdirən fondlar fəaliyyət göstərir ki, təyinatından asılı olaraq onları 3 şərti qrupa ayırmaq olar:

*1. Sabitləşdirmə fondları (Alyaska, Venesuela, Kolumbiya, Küveyt, Nigeriya, Norveç, Çili);*

*2. Gələcək nəsillər fondu (Alberta, Alyaska, Kiribati, Küveyt, Oman, Papua-Yeni Qvineya);*

*3. Büdcə rezerv (ehtiyat) fondları (Honkonq, Sinqapur, Estoniya, CAR).*

Neftlə zəngin olan digər ölkələrdən fərqli olaraq Azərbaycanda Neft Fondunun yaradılmasında əsas məqsəd həmin vəsaitləri öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrə yönəltməkdir. Başqa sözlə, DNF bu gün ölkənin inkişaf fondu və gələcək üçün bir lokomotivdir.

Həyata keçirilən neft strategiyası çərçivəsində xarici sərmayəçilərlə ölkəmizin neft-qaz ehtiyatlarının birgə işlənməsini nəzərdə tutan bir sıra sazişlər imzalanıb ki, bu sazişlərin həyata keçirilməsindən ilk gəlirlərin əldə edilməyə başlaması onların səmərəli istifadəsi məsələsini gündəmə gətirib. Məhz belə bir mexanizmin yaradılması məqsədi ilə Azərbaycan prezidentinin 29 dekabr 1999-cu il tarixli müvafiq fərmanı ilə DNF təsis edilib. Fondun Əsasnaməsi isə düz bir ildən sonra dekabrın 29-da təsdiq edilib.

Neft və qazın kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişlərin həyata keçirilməsi və Fondun öz fəaliyyətindən əldə olunan vəsaitin toplanması və səmərəli idarə edilməsi ilə yanaşı, DNF böyük həcmdə daxil olan xarici valyuta gəlirləri şəraitində ölkədə makroiqtisadi sabitliyin qorunması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi və ölkənin sosial-iqtisadi tərəqqisi ilə əlaqədar mühüm ümummilli layihələrin maliyyələşdirilməsi istiqamətində fəaliyyət göstərir.

Fondun vəsaitlərinin toplanması və xərclənməsi sahəsindəki fəaliyyətinə Müşahidə Şurası nəzarət edir ki, bu Şura Fondun illik büdcə layihəsini, illik hesabat və maliyyə hesabatını auditor rəyi ilə birlikdə nəzərdən keçirir və rəy verir. Ölkə prezidenti tərəfindən təsdiq edilən Müşahidə Şurasının üzvləri dövlət orqanlarını və ictimai təşkilatları təmsil edirlər.

### VƏSAİTLƏRİN İDARƏ EDİLMƏSİ

Bildiyimiz kimi, DNF-nin vəsaitlərinin idarə edilməsi ölkə prezidentinin fərmanı ilə təsdiq olunmuş investisiya qaydaları əsasında həyata keçirilir. Fondun vəsaiti nüfuzlu və beynəlxalq miqyasda tanınmış maliyyə qurumlarının hesablarında saxlanılır. İnvestisiya dərəcəli kredit reytinqindən aşağı olmayan suveren, beynəlmiləl və korporativ borc kağızlarına yerləşdirilir və nüfuzlu xarici menecerlərin idarəetməsinə verilir. Hazırda Fondun vəsaitləri istiqrazlarda, o cümlədən, inkişaf etmiş xarici ölkələrin dövlət istiqrazlarında, xarici dövlət agentlikləri tərəfindən buraxılan borc kağızlarında, depozitlərdə və pul bazarı alətlərində, struktur qiymətli kağızlarında yerləşdirilib. Vəsaitlərin bir hissəsi 2 xarici menecerə - Almaniyanın "Döyçe Asset Management" və İsveçrənin "Kredi Suiss" qrupuna daxil olan "Klariden" bankına məhdud şərtlər altında idarəetməyə verilib.

İndiki "neft bumu" şəraitində qeyri-neft saldosu vergi-büdcə siyasətinin əsas hədəfi olmalıdır. Məlumat üçün bildirək ki, qeyri-neft defisiti konsepsiyası ilk dəfə Norveçdə həyata keçirilib. Qeyd edək ki, Norveçdə neft sektorundan daxil olan bütün gəlirlər Dövlət Neft Fonduna (Norvegian State Petroleum Fund), qeyri-neft sektorunun bütün gəlirləri isə dövlət büdcəsinə daxil olur. Dövlət xərclərinin qeyri-neft gəlirlərindən artıq olduğu zaman yaranan büdcə defisiti (struktur defisiti) DNF-dən transfert hesabına örtülür. Artıq Qazaxıstanda da bu sistemin tətbiqinə başlanılıb.

Azərbaycanda da bu sistemin tətbiq edilməsi qeyri-neft sektorunun inkişafını daha düzgün izləməyə və problemlərin vaxtında aradan qaldırılmasına imkan verər.

Məlumat üçün qeyd edək ki, DNF-nin valyuta vəsaiti üzrə hesablaşma hesabları yalnız Mərkəzi Bankda açılır. Fondun valyuta vəsaitinin saxlanılması və ya yerləşdirilməsi müvafiq əqdlər əsasında həyata keçirilir.

### DNF VƏ ÖLKƏ QURUCULUĞU

Qısaca olaraq ARDNF-nin ölkədə həyata keçirilən milli və transmilli layihələrin həyata keçirilməsində roluna nəzər salsaq fondun ölkə iqtisadiyyatının bütün sahələrində aktiv fəaliyyətinin şahidi olmuş olarıq. Fond Heydər Əliyev adına Bakı Tbilisi-Ceyhan Əsas İxrac Boru kəməri layihəsində Azərbaycanın iştirak payının maliyyələşdirilməsi (2006-cı ildə başa çatıb - 297,9 mln. manat), qaçqın və məcburi köçkün ailələrinin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması problemlərinin həlli (543,1 mln. manat), Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi (489,4 mln. manat), Samur-Abşeron kanalının rekonstruksiya edilməsi (302,9 mln. manat), dövlət büdcəsinə transfertlər (7 880 mln. manat), Dövlət İnvestisiya Şirkətinin Nizamnamə kapitalının maliyyələşdirilməsi (90 mln. manat), "Bakı - Tbilisi - Qars yeni dəmir yolu" (27,1 mln. manat), AÇG üzrə layihədə ARDNŞ-in iştirak payının tənzimlənməsi (87,6 mln manat) layihələrinin və "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın (3,6 mln. manat) maliyyələşdirilməsini həyata keçirir. 2009-cu il iyulun əvvəlinə dövlət proqramı çərçivəsində Fond tərəfindən maliyyələşdirilməsi təmin edilmiş xaricdə oxuyan tələbələrin sayı 194 nəfər təşkil edib.

Onu da qeyd edək ki, ölkə prezidentinin 7 oktyabr 2009-cu il tarixli Fərmanı ilə DNF-nin 2009-cu il üçün büdcəsinə bir sıra dəyişikliklər edilib. Dəyişikliklərə əsasən, bəzi layihələrin bu il üçün xərcləri azaldılıb, bəzilərinin isə artırılıb.

Fond 2001-ci ildən başlayaraq Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlərin həyata keçirilməsinə vəsait ayırır. Bu dövr ərzində DNF-nin vəsaiti hesabına Ağdam, Füzuli, Biləsuvar, Goranboy və Beyləqan rayonlarında 4 qəsəbə, 5161 ev və digər sosial-məişət obyektləri tikilib. Eləcə də Sabirabad və Ağcabədi rayonlarında qaçqın və məcburi köçkünlər üçün bütün infrastrukturu ilə birlikdə yaşayış qəsəbələri salınıb Azərbaycanın digər bölgələrində, o cümlədən, Şəmkir, Ağstafa, İsmayıllı, Oğuz, Şəki, Gədəbəy rayonlarında, Naxçıvan MR-də, Bakı, Sumqayıt, Yevlax şəhərlərində, Mehdiabad, Ramanı və Pirşağı, Fatmayı qəsəbələri ərazisində məcburi köçkünlər üçün yaşayış evlərinin, müvafiq sosial-mədəni və digər obyektlərin tikintisi həyata keçirilib.

2001-ci ildən 2009-cu ilin iyulun əvvəlinə kimi bu layihə üzrə görülən tədbirlərə Fonddan ümumilikdə 543,1 mln. manat vəsait ayrılıb.

Ümumilikdə neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya 2005-2025-ci illəri əhatə edir və bu müddət ərzində həmin gəlirlərdən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirir. Bu strategiya müvafiq mənbələrə uyğun olaraq neftin və qazın satışından DNF-də və dövlət büdcəsində toplanan gəlirlərin idarə edilməsini nəzərdə tutur.

### BEYNƏLXALQ MALİYYƏ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ

DNF dünyanın bir çox maliyyə qurumları, bankları və beynəlxalq təşkilatları ilə sıx əməkdaşlıq edir. Beynəlxalq maliyyə təşkilatlarının, o cümlədən Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının (DB) ekspertləri Neft Fonduna mütəmadi səfərlər edir.

Bir müddət öncə DB DNF-yə sərmayə siyasətinə yenidən baxmağı və öz vəsaitlərini daha riskli maliyyə alətlərinə yatırmağı təklif etmişdir. DNF kimi uzunmüddətli sərmayə (pensiya, dövlət) fondları öz vəsaitlərinin 30-40%-ni səhmlərə yatırırlar. Bunu DB xəzinadarlığı və RAMP (Reserve Assets Management Programme) proqramının direktoru Cenifer Conson Kanari DNF-nin icraçı direktoru Şahmar Mövsümovla birgə mətbuat konfransında bildirmişdi. Məsələn, Norveçin Neft Fondunun səhm portfeli onun aktivlərinin 60%-nə çatır. Son 20 il müddətində isə belə uzunmüddətli sərmayələr özünü doğruldub. Belə ki, bu sərmayələr üzrə gəlirlilik istiqrazlarla müqayisədə bir neçə dəfə yüksəkdir. O, həmçinin bildirib: "Azərbaycan əhalisinə aydın olmalıdır ki, vəsaitlər səhmlərə yatırılırsa, qısamüddətli perspektivdə qiymətli kağızların dəyərinin yüksək dəyişkənliyinin hətta mənfi gəlirliyə gətirəcəyinə hazır olmaq lazımdır". Onun rəyinə görə, qısa zaman aralığında bu vəziyyət aradan qalxır və səhmlərin idarə edilməsindən əldə olunan gəlirlər bir neçə dəfə artır. O, öz növbəsində qeyd edib ki, indiyə qədər DNF mühafizəkar siyasət aparırdı və bu, həmin dövr ərzində vəsaitlərin idarə olunması üçün platformanın formalaşması ilə bağlı idi.

Ş.Mövsümov isə DNF-nin ilk dəfə səhm portfelinin genişləndirilməsi planlarını bəyan etsə də, dünyada baş verən mövcud proseslər ilə əlaqədar bu planların təxirə salındığını bildirmişdi. "Bu planlar düzgündür və böhranın Neft Fondunun gəlirlərinə təsir göstərməməsi bunu təsdiq edir. Belə ki, səhmlərin dəyəri 50%-dək azalıb" - deyə Ş.Mövsümov vurğulayıb.

Xatırladaq ki, DNF RAMP ilə əməkdaşlıq edir və 2007-ci ildən 100 mln. ABŞ dolları həcmində vəsaiti DB xəzinədarlığının istifadəsinə verib. 2007-ci ilin yekunlarına görə, səhmlərdə fondun aktivlərinin cəmi 0,1% yerləşdirilib.

*Davamı səhifə 8-də*

# Dövlət Neft Fondu - Azərbaycanın inkişaf fondudur

*Əvvəli səhifə 6-da*

### MHŞT-NİN AZƏRBAYCANDA HƏYATA KEÇİRİLMƏSİNDƏ NEFT FONDUNUN ROLU

DNF Böyük Britaniya hökuməti tərəfindən irəli sürülən Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün (MHŞT) Azərbaycanda tətbiqi prosesində fəal iştirak edir. Fondda toplanan vəsaitlərin əksər hissəsinin Azərbaycanın mineral ehtiyatlarının hasilatı sahəsində əldə olunduğunu nəzərə alınmaqla, bu, Böyük Britaniyanın baş naziri Toni Bleyer tərəfindən 2003-cü ildə elan edilib.

2009-cu il fevralında Qətərdə keçirilən MHŞT üzrə 4-cü beynəlxalq konfransda Azərbaycana MHŞT-nin tətbiqində tamhüquqlu üzv statusunun verilməsi məsələsi müzakirə edilərək təsdiq edilib.

Konfransda həmçinin Azərbaycanın MHŞT-yə qoşulan ölkələr tərəfindən MHŞT prinsip və meyarlarının tam tətbiq edildiyini təsdiqləyən qiymətləndirmə prosesindən keçən ilk ölkə olduğu qeyd edilib. Bununla da Azərbaycan MHŞT-ni tətbiq edən və namizəd statusu almış 26 ölkədən tamhüquqlu üzv satusunu almış ilk və yeganə ölkə oldu. Kofransda Azərbaycana MHŞT prinsip və meyarlarına tam cavab verən ölkə olması və MHŞT-nin tətbiqi sahəsində əldə etdiyi nailiyyətlərə görə "2009-cu il MHŞT mükafatı" təqdim edilib. Konfrans çərçivəsində Azərbaycan yenidən MHŞT üzrə Beynəlxalq İdarə Heyətinə üzv seçilib.

Qeyd edək ki, Fond AR prezidenti qarşısında hesabat verir və məsuliyyət daşıyır. Fondun gəlirləri vergi, rüsum və digər ödənişlərdən qanunvericiliyə müvafiq olaraq azaddır. Fondun yenidən təşkili və ləğv edilməsi AR prezidentinin qərarı ilə həyata keçirilir.

### DÖVLƏT BÜDCƏSİ VƏ DÖVLƏT NEFT FONDU

2010-cu il dövlət büdcəsinin formalaşmasında başlıcı rol DNF-nin transfertlərinə məxsus olacaq. Bu mənbədən dövlət büdcəsinə 4,915 mlrd. manat yönəldiləcək. Fonddan dövlət büdcəsinə transfertin həcmi cari illə eyni səviyyədə saxlanılmasına baxmayaraq, bu mənbədən mədaxil büdcə gəlirlərinin 49,1%-ni təşkil edəcək. Müqayisə üçün qeyd edək ki, 2009-cu ildə Fondun transfertlərinin dövlət büdcəsinin mədaxilində payı 40,4% təşkil edirdi. Göründüyü kimi, növbəti ilin büdcəsi Neft Fondunun transfertlərindən daha çox asılı vəziyyətə düşəcək. Oktyabrın 1-nə olan məlumata görə, Fondun aktivlərinin 10,7 mlrd. manat təşkil etdiyini nəzərə alsaq, bu bir tərəfdən büdcənin formalaşmasında başlıca donorun öz öhdəliklərini şübhəsiz yerinə yetirəcəyinə əminlik yaratsa da, digər tərəfdən də büdcəinin müstəqilliyinə və eyni zamanda onun formalaşması prosesində ictimai iştirakçılığa mənfi təsir göstərən amil kimi qiymətləndirilməlidir.

2010-cu il dövlət büdcəsi layihəsi barədə Milli Büdcə Qrupunun rəyində göstərilir ki, 2010-cu ilin dövlət büdcəsinin mədaxilinin 70%-ə qədəri neft gəlirləri hesabına formalaşacaq. Uzunmüddətli perspektivdə ölkənin dayanıqlı iqtisadi inkişafını təmin etmək baxımından bu tendensiya təhlükəli görünür.

Həmçinin respublikanın 2010-cu il dövlət büdcəsinin gəlirlərinin 9,55 mlrd. manatı və ya 95,4%-i mərkəzləşdirilmiş, 0,46 mlrd. manatı və ya 4,6%-i yerli gəlirlər hesabına formalaşacaq. Belə nisbət Azərbaycanda dövlət maliyyə sisteminin mərkəzləşdirilmiş gəlirlər üzərində qurulmasının, xüsusilə də DNF-dən dövlət büdcəsinə daxil olmaların payının getdikcə artmasının nəticəsi hesab oluna bilər.

Bütövlükdə bu gün ölkədə sosial iqtisadi vəziyyəti inkişafa doğru aparan amil DNF-də yığılan vəsaitin mövcudluğu, onun demək olar ki, məhdudiyyətsiz istifadəsi, beynəlxalq neft və qaz sazişləri çərçivəsində hasilatın pik nöqtəsinə yaxınlaşması və eyni zamanda Azərbaycanın AÇG sazişində pay bölgüsünün ən əlverişli mərhələsində olmasıdır.

Dünyanı öz əhatəsinə alan böhran dövründə büdcənin formalaşmasında əsas yük DNF-nin üzərinə düşdüyündən növbəti ildə Fondun gözlənilən gəlirlərinin demək olar ki, əksər hissəsi (88,8%) xərclənəcək. Bu tendensiyanın qarşısını almaq üçün Fondun vəsaitlərinin xərclənməsi qanunvericilik səviyyəsində məhdudlaşdırılmalıdır.

Sonda qeyd etmək istərdim ki, Fondun fəaliyyətində mühüm əhəmiyyət kəsb edən və daim diqqət mərkəzində olan məsələlərdən biri də effektiv kadr siyasətinin həyata keçirilməsidir. Fondda ABŞ, İngiltərə, Fransa, İtaliya, Türkiyənin tanınmış universitetlərində təhsil almış 80 nəfər şəxs çalışır.

***Bu material Dövlət Neft Fondunun 10 illik yubileyi ilə əlaqədar olaraq Fond tərəfindən Fondun fəaliyyəti barədə Azərbaycan ictimaiyyətinin məlumatlandırılması məqsədilə keçirilən jurnalistlər üçün "Ən yaxşı analitik məqalə" müsabiqəsinə təqdim olunur.***